*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.283-289*

https://doi.org/10.62837/2024.10.283

**AYSUN HƏŞİMİ**
**ADPU**

# HÜSEYN CAVİD YARADICILIĞININ TƏDRİSİNDƏ MOTİVASİYANIN ƏHƏMİYYƏTİ

**XÜLASƏ**

***Açar sözlər: Hüseyn Cavid , romantik , dramaturq , motivasiya , müasir təlim , tədris.***

Azərbaycan ədəbi irsinə dərin fəlsəfi tutuma və yüksək bəşəri dəyərlərə malik əsərlərilə böyük töhfə verən Hüseyn Cavid tarixə adını qızıl hərflərlə yazan dahi şəxsiyyətlərdəndir.Yaradıcılığında gənc nəslin intellektual və emosional inkişafına dəstək verən azadlıq , insan sevgisi , mənəvi dəyərlər kimi mövzuları özündə əsərlərin tədrisinidə həvəsləndirici vasitələrdən istifadə şagirdlərin dərsə olan marağını artırmaqla yanaşı , onların ümumbəşəri dəyərlərə bağlılığını da gücləndirir. Məqalədə Cavidin yaradıcılığını şagirdlərə effektiv şəkildə çatdırmaq üçün istifadə olunan motivasiya üsullarından bəhs edilir. Şagirdlərin ədəbi əsərlərə dərindən nəzər salmalarına və estetik qavrayışlarının təkmilləşdirilməsinə motivasiyanın müsbət təsirlərini araşdıraraq müəllimlərin onun əsərlərindəki dərin fəlsəfi və humanitar mesajları motivasiya yolu ilə necə təsirli təqdim edə biləcəkləri nümunə və izahlarla verilib.

## HUSSAIN JAWID THE IMPORTANCE OF MOTIVATION IN TEACHING CREATIVITY

**Hashımı Aysun**

**SUMMARY**

***Keywords: Huseyn Javid, romantic, dramatist, motivation, modern education, teaching.***

Huseyn Javid, who made a great contribution to the literary heritage of Azerbaijan with his works of deep philosophical capacity and high human values, is one of the geniuses who wrote his name in history with golden letters. besides increasing their interest in the lesson, it also strengthens their commitment to universal values. The article talks about the motivational methods used to effectively convey Javid's creativity to students. Examining the positive effects of motivation on students' in-depth look at literary works and improving their aesthetic perception, examples and explanations of how teachers can effectively present the deep philosophical and humanitarian messages in his works through motivation were given.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 283-289*

# ХУССЕЙН ДЖАВИД ВАЖНОСТЬ МОТИВАЦИИ В ОБУЧЕНИИ ТВОРЧЕСТВУ

**Хашеми Айсун**

***Ключевые слова: Гусейн Джавид, романтик, драматург, мотивация, современное образование, преподавание.***

Гусейн Джавид, внесший большой вклад в литературное наследие Азербайджана своими произведениями глубокого философского потенциала и высоких человеческих ценностей, является одним из гениев, вписавших свое имя в историю золотыми буквами, не только повышая их интерес к уроку. также укрепляет их приверженность универсальным ценностям. В статье говорится о мотивационных методах, используемых для эффективной передачи студентам творчества Джавида. Исследуя положительное влияние мотивации на углубленный взгляд учащихся на литературные произведения и улучшение их эстетического восприятия, были приведены примеры и пояснения того, как педагог может через мотивацию эффективно преподнести глубокие философские и гуманитарные послания в своих произведениях.

Azərbaycan ədəbiyyatının dahi şəxsiyyəti Hüseyn Cavid ədəbiyyata gətirdiyi forma və üslub yeniliyi ilə təriflənərkən eyni zamanda dil və ədəbiyyata yad ünsürləri daxil etməyə çalışması iddialarına məruz qalırdı. Rus zülmünün türk dünyasına qara kölgə kimi düşdüyü bir vaxtda İstanbul mühitindən ədəbi şüurunu qazanan Cavid özünəxas bir üslubla bütün türk dünyası ədəbiyyatında xüsusi bir mövqe tutmuşdur ki, elə əsərlərini diqqətlə araşdıranda böyük şair və dramaturgiya dahisi olduğu ortaya çıxır. Azərbaycanın qərb ədəbiyyatına açıq pəncərəsi olan bu romantizm ustadı yarım əsrdən çox əvvəldən istifadə etdiyi çılpaq türkcəsi ilə göstərib ki , bütün türk dünyasında birləşmək ədəbiyyatda , dildə ortaq məxrəcə çatmaqla mümkündür. Mövzu , eləcə də üslub baxımından milli-mənəvi dəyərlərin hifz olunub gələcək nəsillərə ötürülməsinə xidmət edən əsərlərə malik Cavidin yaradıcılığı təkcə ədəbiyyat xüsusunda deyil , fəlsəfə , psixologiya , sosial elmlərdə əhatəli müzakirə obyekti olmuşdur. Əsərləri insan təbiəti ilə əlaqədar məsələlərə toxunuşu , yaxud xüsusi fəlsəfi tutumu ilə şagirdlərin dünyagörüşünü formalaşdırmaq , onların ruhsal dünyasına toxunmaq , ədəbi duyumunu qüvvətləndirmək nəzərindən tədris prosesinə müvafiqdir. Şagirdlər arasında tənqidi düşüncə , əxlaqi keyfiyyətlərin rəvac tapmasına şərait yaradan “ İblis ” , “ Şeyx Sənan ” kimi nümunələr insan övladının gerçək dünyasındakı təlatüm , batini ziddiyyət , qeyri-maddi mübarizə və dini inacları kimi nüansları təhlil və tədqiq edir : *“İblis nədir?– Cümlə xəyanətlərə bais...Ya hər kəsə xain olan insan nədir?– İblis!..”*[1. s.104 ] Nəzərə alsaq ki , bugünkü modern təhsil proqramı fəlsəfi , ruhsal , əxlaqi-didaktik mövzuları ön planda tutur , onda deyə bilərik ki , Cavidin illər öncə

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 10, 2024
Səh.283-289

ərsəyə gətirdiyi hansı ki bugün də aktuallığından məhrum olmayan həmin o irs tədris prosesində əvəzsiz rol oynayır. Bu xüsusiyyətlərin hər biri də motivasiyaedici element rolunu daşıyaraq pedaqoji prosesin özülünü təşkil edən dərsin ədəbiyyat mərhələsində şagirdlərin monoton şəraitdən kənarlaşaraq diqqət toparlamaq cəlb olunmaq düşünmək araşdırmaq müzakirə etmək nəticə çıxarmaq kimi xüsusiyyətlərini qıcıqlandırmaqla yanaşı onlarda həyati dəyərlərin formalaşmasının təməlini qoyur. Cavid yaradıcılığından bir azca da olsa xəbərdar olan hər kəs bilir ki , dəyər tutumu , yəni vətən , milli ideallar kimi mövzular onda dərin şəkildə işlənmişdir ki , bu da şagirdlərlə əsərlər arasında doğma bir əlaqə yaradaraq onlarda daxili mənin keçmiş , öncəki mədəniyyətini dərk edib sevməsinə şərait yaradır , beləcə onların motivasiyalarını yüksəldir.

Bəs bu motivasiya , onun həyatımızda önəmi nədir ? Öyrənmə ilə motivasiya arasında dərin bir əlaqə var ki , bu da insanın həyatı boyu davam edən bir prosesdir. Motivasiya sözünün mənşəyi latınca hərəkət etmək mənasını verən movere sözünə əsaslanır. Dilimizdə isə bu anlayış elə motivasiya , yaxuda da həvəsləndirmə sözləri ilə ifadə olunur. Metodik ədəbiyyatlarda təhsilin xarakterində əsas 3 nüansa söykənilir: "*Kim öyrədir, nə öyrədir, necə öyrədir*"[2. s.240 ] Təhsilin və öyrənmənin keyfiyyətinə təsir edən ən mühüm amil hesab olunan bu anlayış geniş əhatə dairəsinə malik olmaqla yanaşı , ədəbiyyatda da müxtəlif formalarda təzahür edir. İnsanların hamısı eyni ruh , yaxud eyni psixologiyaya malik olmadıqlarından deyə bilərik ki , şagirdlər də hər cəhətdən eyni deyillər , hələ də bu motivasiya dərəcəsidirsə , bir sinif şəraitində bu fərqliliklər daha çox ortaya çıxır. Öyrənməyə çətinlik yaradan da müxtəlif həvəslənmələrə malik eyni sinifdə oxuyan şagirdlərin eyni dərəcədə də cəlb edilməsidir ki , onlar homogen varlıqlar olmadığından onları eyni şəkildə cəlb etmək çətin məsələdir. Akademik motivasiyası yüksək olan tələbələr dərsi diqqətlə dinləyərək maraq , həvəs nümayiş etdirib bütün tapşırıqları yerinə yetirmək üçün səy göstərir , tapşırıqlar və layihələr üzərində işləyərkən bu tələbələr tədris olunanlara diqqətlə yanaşır , qeydlər aparır , suallar verib onlara aydın cavablar verirlər , dərsləri heç bir materialı buraxmadan izləyirlər. Xüsusiyyətləri yuxarıda qeyd olunan akademik tələbələrdən fərqli olaraq , akademik motivasiyası zəif olan tələbələrin əksəriyyəti yalnız attestat , diplom almaq üçün məktəbə gedir. Nəticə olaraq , onlar dərs oxumaqdan çox sıxıldaqları üçün müəllimlərə ciddi problem yaradırlar , ona görə də təlimin planlaşdırılması zamanı ilk növbədə akademik motivasiyası olmayan tələbələrin vəziyyəti nəzərə alınmalıdır. Yüksək motivasiyalı tələbələrin bu sahədə çox köməyə ehtiyacı yoxdur , çünki onlar istənilən dərs formatında inkişaf edə bilirlər. Bu aşağı səviyyədə olan tələbələrin dərslərdə dərslərdə iştirakını və müvəffəqiyyətlə öyrənməsini təmin etmək üçün tədris mühiti düzəldilməlidir. Motivasiya da belə öyrənmə mühitinin yaradılmasında ən vacib elementlərdən biri olduğundan , təkcə formal öyrənmə mühitlərində vacib deyil , həm də həyat boyu bütün hallarda öyrənmə və şəxsi uğur üçün vacibdir. Məlumdur ki , həvəsləndirilmiş

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 283-289*

tələbələr standartlaşdırılmış performans testlərində öz sinif yoldaşlarını üstələyir , dərslərdə və fəaliyyətlərdə daha effektiv iştirak edərək bunu uzun müddət saxlaya bilirlər. Düşünün , bir avtomobil nə qədər qabaqcıl texnologiyalarla istehsal olunsa da , onu idarə etmək üçün enerji lazımdır. Motivasiya insanlar və insanlardan ibarət təşkilatlar üçün də oxşar rol oynayır , belə ki , aşağı olduqda, həvəs, həyəcan, istehsal və işləmək əzmi də aşağı olur. Məlumdur ki, xüsusilə fərdlərin öyrənmə fəaliyyətlərində uğur motivasiya səviyyəsindən asılı olaraq artır. Onlar bildirirlər ki, hər hansı bir sahədə uğurlu tələbələrlə daha az müvəffəqiyyətli tələbələr arasında mühüm fərqlərdən biri də uğurlu tələbələrin bir işi yerinə yetirmək istəməsələr belə , özlərini necə həvəsləndirməyi bildikləri halda , daha az müvəffəqiyyətli tələbələrin isə motivasiyalarını idarə etməkdə çətinlik çəkməsidir. Bəs müəllimlər şagirdlərin maraqlarına daha çox diqqət yetirərək onları dərsə necə cəlb edə bilər və bu , öyrənmək üçün necə motivasiya yarada bilər ? Universitet dönəmlərində pedaqoji təcrübədə iştirak etdiyim müddətdə əslində bu suallara bir qrup cavablar tapa bildim :

• şagirdlərin maraqlarına uyğun nümunələr təqdim etməklə dərsdə daha çox diqqətləri cəlb oluna bilər ki , bu da öyrənməyi mənalı və əyləncəli edə bilmək .

• şagirdlərin maraqlarını , gündəlik həyatını dərs materialı ilə əlaqələndirərək onları daha çox həvəsləndirmək . Çünki sinif ortamına real dünya nümunə və tətbiqləri daxil etmək vacibdir.

• şagirdlərə seçimlər təklif etməklə onlara maraqlandıqları fənləri seçməyə imkan tanımaq. Bu da öyrənmədə şəxsi maraqları gücləndirir.

• onların maraqlarını nəzərə alaraq layihə və tapşırıqların tərtib edilməsi öyrənmə motivasiyasını artıra bilər , çünki şagirdlərin öz maraqlarını öyrənmək imkanı olduqda özlərini daha çox idarə edirlər.

• şagirdlərin sinifdə müxtəlif materiallar və resurslarla təmin edilməsi ki , bu da öyrənməni şaxələndirməyə kömək edə bilir. Yəni elə bir mühit yaradılmalıdır ki , şagirdlər düşünməyə ehtiyacdan əlavə həvəs duysunlar. 8-ci sinif dərsliyində verilən nümunə buna misal ola bilər: *"Bilik və bacarıqlarınızı tətbiq edin. 3.Dairələri dəftərinizə çəkin. Hadisələrin başlanğıcını, münaqişənin yaranmasını,inkişafını, ən gərgin, yüksək mərhələyə çatmasını, həll olunmasını və sonluğu bir-iki cümlə ilə yazın."*[3. s.151 ]

• şagirdlərə maraqlandıqları mövzularda araşdırma aparmaq imkanı verilməsi onların öyrənmə həvəslərini artıra bilir . onların öz maraqlarının ardınca getmələrinə imkan vermək vacibdir.

• rəqəmsal alətlər və onlayn resurslardan istifadə etməklə tələbələrin maraqlarına uyğun materiallara müraciət etmək. Təhsildə texnologiyadan səmərəli istifadə olunmalıdır. Məsələn, 11-ci sinif metodik vəsaitdə "İblis" əsərinin təhlilindən öncə motivasiyanın bu şəkildə qurulması alternativ kimi verilib: *"Motivasiya yaradılmasının bir yolu da "Cavid ömrü" filmindən "İblis" faciəsi ilə bağlı epizodun*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.283-289*

*(https://www.youtube.com/ watch?v= YVposIXvXVI) səsləndirilməsi və yığcam müzakirəsi ola bilər"*[4. s.68 ]

• şagirdlərə öz hobbi və maraqlarını sinfə gətirmək imkanı vermək öyrənməni daha fərdiləşdirə bilir. Yəni şagirdlərin maraqlarını bölüşə bilməsi üçün platforma yaradılmalıdır.

• maraqlarına uyğun öyrənmə oyunları və interaktiv fəaliyyətlərlə dərs mühitinin daha cəlbedici edilə bilməsi . Unutmamalı ki , əyləncəli öyrənmə təcrübəsi motivasiyanı artırır.

• şagirdlərə öz sahələrində layihələr yaratma və təqdim etmə imkanı yaratmanın öyrənmə müddətini daha maraqlı və cəlbedici hala gətirə bilməsi. Çünki şagirdin , yaxud öyrənməyə mənən ac bir insanın yaradıcı təxəyyülü onun müstəqil dünyasıdır ki , bu dünyanı onların əlindən almaq olmaz .

Bu punktlar hər bir fənnin tədrisi zamanı xüsusi metodlarla həyata keçirilərsə , effekt verəcək məsələlərdir , xüsusilə də geniş söz bazası tələb edən humanitar fənlərdə. Ədəbiyyat fənnindəki mövzular , yazıçıların bəşəriyyətə irs qoyub getdiyi dəyərli nümunələr həm motivəedici elementləri tətbiq etməyə , həm də mənəvi dünyalarına addım ataraq onları formalaşdırmağa , bir şəxsiyyət kimi yetişdirməyə xidmət edir. Cavidin yaradıcılığı da insanın mənəvi aləminin ən yüksək dərəcəsini , psixoloji fərqlilikləri özündə təzahür etdirən obrazlarla zəngindir , sanki o surətlərlə insan həyatın alt qatına enir. Şagirdlərin zövq və marağa söykənən ehtiyaclarını ödəmə əsasında yaranan daxili motivasiya yazıçının duyğusal dinamikaya malik əsərlərində özünü daha çox əks etdirir. Nəticəyə uyğun dəyərləndirmə , yəni təltifləndirmək , yaxud da cəzalandırma kimi nüanslarla əlaqələnən xarici motivasiya isə təkcə ədəbiyyat yox , bütün dərslərdə rahatca qurula bilər. Məsələn , 8-ci sinif ədəbiyyat dərsliklərində H. Cavidin "Ana" mənzum faciəsi ixtisarla verilmişdir ki , bu mövzunun tədrisi zamanı şagirdlərə əsərin müəyyən səhnələrini əyaniləşdirməyə şərait yaradılması , yaxud debatlar təşkil edərək əsərin fəlsəfi mahiyyətini müəyyənləşdirmək motivasiyanı artıra bilər. Müşahidələr də göstərir ki , drammatik əsərlərin təhlili , həmçinin onların drammatik formada olması şagirdləri obrazın xarakterini anlamaq mahiyyətli müzakirələrə daha çox cəlb edir , çünki onların emosional dünyasını qıcıqlandırır , bu da pedaqoji prosesdə iştiraka maraq yaradır. Həvəsləndirmə elementlərindən biri olaraq şagirdlərin yaradıcılığını inkişaf etdirməyə istiqamətlənmiş çalışmalardan esse təqdim etməyi tapşırmaq məqsədəuyğundur ki , nümunə kimi "Ana" dramından yola çıxaraq işi yerinə yetirmək olar. Misal üçün " Qanpolad öldürülməsəydi hadisələr necə davam edərdi? " , yaxud "Səlma ana övladının qatilinə kömək etməsəydi, yenə də ideal ana obrazı hesab edilərdimi? " kimi debat xarakterli tapşırıqlar yerinə yetirilə bilər. Tədrisinə 4 saat vaxt ayrılan bu faciənin ixtisarla verildiyi dərsliyə nəzər yetirəndə əsərin kənarında məzmunla bağlı qeyd olunan suallar sondakı təhlillə bağlı tapşırıqlarla ortaq mahiyyət daşıyır. "Məzmun üzrə iş" , "Evdə iş" , "Araşdırın , fikirləşin , cavab

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 283-289*

verin" kimi tapşırıqlar əsərin məzmunun daha yaxşı öyrənilməsinə , əsərin ötürə biləcəyi hər detalı şagirdlərin anlaması üçün müəllimlərə də istiqamət verməyə yararlıdır. 11-ci sinif dərsliyində verilən evdə iş çalışması : " *1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. 2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın. 3. "İblis"faciəsini oxuyun, əsərin məzmunu üzrə müzakirəyə hazırlaşın."*[5. s.39 ] Hətta nəzərə alınsa ki , Cavidin yaradıcılığı fəlsəfi məzmunu daha çox ehtiva edir , o zaman dramın tədrisində 2 saatın məzmun , 1 saatın isə təhlil xarakterli işə ayrılması təəccübləndirici deyil. Şagirdlər üçün yaş səviyyələrinə uyğun olaraq çarpaz xarakterli müzakirə obyekti olacaq məsələnin işıqlandırılması onların həm düşüncə tərzinin ortaya çıxmasına , həm də doğru perspektivə yönəlmələrinə şərait yaradır. Əsərdə Səlma obrazının davranışlarının səciyyəsində onun oğlunun qatilinə kömək etməsini diskussiya halına salıb şagirdlərdən 3 qrup yaradaraq əlehinə , lehinə və neytral düşünənlər arasında neytral düşünənləri inandırmaq vəzifəsi qoyulur ki , beləcə onlar da saf dəlillər qarşısında alternativlərini seçirlər. Bəs bu məsələ sadəcə düşüncə tərzlərini formalaşdırmaq üçündürmü ? Əlbəttə ki , xeyr. Bu zaman onların həm danışıq , həm də özlərinə güvənərək fikir ifadə etmək qabiliyyətləri formalaşmış olur. Yəni göründüyü kimi mənim tanrım gözəllikdir, sevgidir deyən Cavid yaradıcılığında motivasiya yaradacaq mövzular ümumiləşərək cüt şəkildə 3 qrupda birləşir : fəlsəfi-dini , məhəbbət və insan , sosial və ədalət. Elə bu baxımdan hər üç yanaşmanı özündə ehtiva edən yazıçının əsərləri içərisində " Ana" mənzum faciəsinin dərsliyə salınması tamamilə məqsədəuyğundur ki , müəllim dərsin giriş mərhələsində hələ şagirdlərə motivasiya məqsədli Eyyüb Yaqubovun "Ana" musiqisinin dinlədilməsi maraqlı ola bilər. Sonrakı mərhələ metodik vəsaitdə də qeyd olunduğu kimi verilə bilər : *"Tədqiqat sualı : Dramda H.Cavidin insanları xeyirxahlığa , yer üzündə qan tökməyə çağırışı öz əksini tapmışdır fikrini doğru saymaq olarmı ? Tədqiqatın aparılması:Dramın təhlili ilə bağlı tədqiqat işini fərqli məzmunda və formada təşkil etmək mümkündür. Lakin bütün hallarda dərslikdəki Əsərin təhlilinə hazırlaşın mətninə və Araşdırın . Fikirləşin .Cavab verin başlıqlı tapşırığa müraciət edilməsi faydalıdır".*[6. s.173] Daha sonra digər mərhələlər də ardıcıl həyata keçirilir. Multimedia vasitələri , rollu oyunlar, interaktiv dərslər tədrisdə motivasiyaedici, dərsə təşviqləndirici önəmli elementlərdir. Dramın tədrisi zamanı əsərin vurucu səhnələrini şagirdlərin rollu oyunlar üzərində canlandırması ilə , yaxud internet resurslarından yararlanıb, özəlliklə də video-audio materiallarından şagirdlərə əsərə dair tamaşalar izlətməklə onların daha yaxşı qavramasına kömək etmək olar. Bir çox önəmli məsələlərə toxunan , qan davasına son qoymağı ideal bir qadın surəti vasitəsilə göz önünə sərən dramaturq qonağa necə davranmalı , əhdinə sadiq qalmalı , insanın zahirinə aldanmamağı , qadın azadlığı , insanın nəfsinin quluna çevrilməməsini və təkcə öz övladına deyil , başqalarına da ana ola bilməyi xatırladır ki, bu səhnələrdən parçaları hər bir obrazı bir şagirdin canlandırması ilə

əyaniləşdirmək əsərin daha yaxşı qavranılmasına və həyati-tərbiyəvi mahiyyət daşıyan nüansların əxz edilməsinə imkan yaradır. On birinci sinif ədəbiyyat dərsliyində isə dramaturqun digər bir fəlsəfi əsəri olan "İblis" faciəsinə yer verilib və Cavidin həyat və yaradıcılığının tədrisinə 1 saat , əsərə isə 4 saat vaxt ayrılması nəzərdə tutulub. Bunlardan isə sadəcə Cavid haqqında ilkin bir saatda və məzmun ilə təhlil üzrə iş saatlarında motivasiyaya yer ayrılması nəzərdə tutulub. Müəllifin aşağı siniflərdə keçirilən əsərlərindən motivasiya olaraq bəhrələnmək mümkündür. Məsələn, Azərbaycan Dövlət Pedaqoji kollecinin dil-ədəbiyyat müəllimi Günəş Quliyeva 11-ci siniflərdən birində keçdiyi ədəbiyyat dərsində "Hüseyn Cavidin həyat və yaradıcılığı" mövzusunun motivasiya mərhələsi bu şəkildə qurduğunu bildirib : *"Dərsin motivasiya mərhələsində "Tanrı", "Sevgi", "Gözəllik", "Mədəniyyət", "Turan" sözlərini lövhədə yazıram. Bu açar sözlərin vasitəsi ilə tələbələr nəzərdə tutulan şəxsin görkəmli şair Hüseyn Cavid olduğunu söyləyirlər. Dərsin bu mərhələsində BİBÖ üsulundan istifadə edərək , şair haqqında bilikləri yada salır, tələbələrin fikirləri, düşüncələri dinlənilir. Sonra yeni dərsin adı lövhədə qeyd olunur."*[7] Hüseyn Cavid yaradıcılığının tədrisi tələbələrdə yalnız milli və mədəni dəyərlərə sevgi oyatmaqla kifayətlənmir, eyni zamanda onların ədəbiyyata olan marağını artırır, bədii-estetik düşüncələrinin formalaşmasına və yaradıcılıq qabiliyyətlərinin inkişafına təkan verir ki, bu da ümumilikdə tədris prosesinə daha böyük motivasiya ilə yanaşmalarına səbəb olur.

## Ədəbiyyat

1. Hüseyn Cavid.Əsərləri.Beş cilddə.IIIcild.Bakı,"Lider nəşriyyat", 2005, 304 səh
2. Hüseynzadə,R.L.(2013).Məktəbdə pedaqoji prosesin təşkili. Bakı: Aktiv, 240 s.
3. Ədəbiyyat (VIII sinif üçün dərslik), Bakı, 2019, 151 s.
4. Ədəbiyyat (XI sinif üçün metodik vəsait) , Bakı, 2018, 68 s.
5. Ədəbiyyat (XI sinif üçün dərslik), Bakı, 2018, 39 s.
6. Ədəbiyyat (VIII sinif üçün metodik vəsait), Bakı, 2019, 173 s.
7. https://www.anl.az/down/meqale/az_muellimi/2017/dekabr/570417.htm

**Rəyçi: fiologiya üzrə fəlsəfə doktoru dosent Razim Məmmədov**